# "Babamın arzusu olub ki, mən tanınmış samboçu olum"

## Bakı şəhəri 9 nömrəli Uşaq-Gənclər İdman Məktəbinin yetirməsi Mehman Mehdizadə ilə söhbət

Mehdizadə Mehman Azayət oğlu 2000-ci ildə Bakıda anadan olub. 6 yaşında Abşeron rayon Mehdiabad qəsəbəsi 4 nömrəli tam orta məktəbin birinci sinfinə qəbul olub. Hazırda həmin məktəbin IX sinif şagirdidir. Atasının sambo idman növünə olan marağından sonra Mehmanın da bu idman növünə sevgisi yaranıb. O, 8 yaşından tanınmış pedaqoq idmançı Natiq Ələkbərovun rəhbərlik etdiyi Bakı şəhəri 9 nömrəli Uşaq-Gənclər İdman Məktəbinin sambo bölməsinə yazılaraq təcrübəli məşqçi-müəllim Cəsarət Allahverdiyevdən bu idman növünün sirlərini öyrənməyə başlayıb. Təcrübəli məşqçi müəllimdən dərs alan Mehman Mehdizadə valideynlərinin və onu sevənlərin arzularını gerçəkləşdirmək üçün çox çalışıb. 2009-cu ildə sambo üzrə idman məktəbləri və klubları arasında keçirilən Bakı çempionatında I yeri tutan Mehman 2010 və 2011-ci illərdə 9-11 yaşlı idmançılar arasında Azərbaycan çempionatında və bir sıra beynəlxalq turnirlərdə iştirak edib. O, bu yarışlarda qalib olaraq beynəlxalq yarışlara vəsiqə qazanıb. Bundan başqa, M.Mehdizadə 2015-ci ildə Rusiya Federasiyasının Dağıstan Respublikasında 10-a yaxın ölkənin aşağı yaş qruplarından olan təcrübəli idmançıları arasında keçirilən beynəlxalq turnirdə iştirak edərək II yerə layiq görülüb.

Məşqçi-müəlliminin ümidini həmişə doğrultmağa çalışan Mehman 2015-ci il may ayının 15-dən 25-nə kimi Türkiyənin İstanbul şəhərində 9-11yaş qrupları arasında keçirilən 20-yaxın ölkənin qatıldığı Avropa açıq birinciliyində iştirak edərək II yerin sahibi olub. O, eyni zamanda Gürcüstanın Poti şəhərində beynəlxalq turnirdə rəqiblərindən fərqlənərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Mehmanla 9 nömrəli Uşaq-Gənclər İdman Məktəbində görüşəndə ona bir neçə sual ünvanladıq.

*- Mehman, bu idman növünü sənə sevdirən hansı cəhət idi?*

- Sambo mənim üçün bütün idman növlərindən fərqlidir. Bu idman növünün mənim üçün öz özəlliyi var. Ata babamın arzusu olub ki, mən tanınmış samboçu olum. 4-5 yaşlarımdam qohumların uşaqları ilə həmişə güləşib hansımızın güclü-gücsüz olduğunu müəyyən edirdik. Güləşəndə yaşıdlarımın hamısını yıxırdım. Atam mənim qolumun güclü olduğunu, çalışsam məndən yaxşı idmançı olacağını deyirdi.

*- Mehman, sənin uğurlarınla maraqlanan-da məlum olur ki, qısa müddətdə bu nailiyyətləri əldə etmisən. Hər bir idmançının idman həyatında məqsədi və arzusu olur. Maraqlıdır, sənin arzun nədir?*

- Məşqçi-müəllimim həmişə mənə deyir ki, sən yaşıdlarından fərqli olaraq çox vətənpərvər oğlansan. Mənim üçün Vətən hər şeydən önəmlidir. Arzum hərbiçi olmaqdır. "Bakı-2015" I Avropa Oyunlarında güləş üzrə 71 kq çəki dərəcəsində qızıl medal qazanmış pəhləvanımız Rəsul Çunayevin çıxışını izləyəndə çox fərəhləndim. Həmin an qarşıma məqsəd qoydum ki, onun kimi tanınmış idmançı olum. Ən böyük arzum isə dünya və olimpiya çempionu olmaqdır. İstərdim ki, məşğul olduğum bu idman növü də olimpiya oyunlarına salınsın. Qalib olub üçrəngli bayrağımızı zirvələrə qaldırsam, himnimizi səsləndirsəm və Azərbaycanımızın idman şərəfini beynəlxalq yarışlarda uca tutaraq layiqli təmsil etsəm, çox xoşbəxt olaram.

*Mehmanın məşqçi-müəllimi Cəsarət Allahverdiyev:* "Azərbaycan zəngin idman ənənələrinə malik olan bir dövlətdir. Bu ənənələrin böyük tarixi, enişli-yoxuşlu inkişaf yolu vardır. Bu gün Azərbaycan idmanı özünün ən uca zirvələrinin fəthinə doğru gedir. Bizim idmançılarımız bu yolda bütün çətinliklərin öhdəsindən gəlir. Mehman çox cəld və zəhmətkeş bir idmançıdır. Mən onun tanınmış və güclü idmançı olacağına və ümidlərimizi doğruldacağına inanıram.

**Rəşad ZİYADOV,**
*"Azərbaycan müəllimi"*

